**Vüqar Bayramov**

# İllik Fəaliyyət Hesabatı

***Mart 2024***

*İllik fəaliyyət hesabatım, seçicilərimlə həyata keçirdiyim görüşləri, onların çətinliklərinin həllinə dair reallaşdırdığım tədbirləri, eləcə də ölkəmizin inkişafına yönəlik irəli sürdüyüm təklifləri əhatə edir.*

## Hörmətli Seçicilərim və Həmyerlilərim,



VI çağırış Milli Məclisin fəaliyyətə başlamasından 4 il ötür. Öz fəaliyyətimlə daim seçicilərimin inamını doğrultmağa, onların üzləşdiyi çətinliklərin həllinə, eləcə də təkliflərimlə ölkəmizin, rayonumuzun inkişafına töhfə verməyə daim səy göstərirəm. Həyata keçirdiyim tədbirlərə yönəlik rüblük, illik hesabatlar verərək siz seçicilərimi mütəmadi olaraq məlumatlandırmağı da vəzifəmin ən vacib hissəsi hesab edirəm. Ötən bir il həm də Milli Məclisin məhsuldar fəaliyyəti ilə yaddaşlarda qaldı. VI çağırış Milli Məclisin son birillik fəaliyyət müddətində həyata keçirdiyim tədbirlərin, eləcə də Sizin müraciətlərinizin nəticəsi ilə bağlı hesabatı diqqətinizə çatdırıram.

Bildiyimiz kimi artıq rayonumuz bütövləşib və bərpa olunma mərhələsinə qədəm qoyub. Vətən müharibəsindən sonra həyata keçirilən böyük tikinti-quruculuq işlərinin nəticəsi olaraq artıq Füzuli şəhərinə 2000-dən artıq ailənin köçürülməsi yekunlaşmaq üzrədir. Dünya miqyasında şəhərsalma prinsiplərinə uyğun olaraq inşa edilən Füzuli şəhərinin ilk yaşayış kompleksinin aşılış mərasimində cənab Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva da iştirak etmişdir. Məhz bunların nəticəsidir ki, seçicilərimizlə görüşlərimizi artıq Füzuli şəhərində də keçirə bilirik. Həmçinin Füzuli şəhərində ikinci və üçüncü yaşayış kompleksinin, Dövlətyarlı, Qöçəhmədli, Cuvarlı, Qarğabazar, Dədəli və Pirəhmədli kəndləriin təməli qoyulmuşdur ki, bu da 30 illik işğalın acı nəticələrini yaşayan soydaşlarımızın öz ata-baba yurdlarına qayıdacaqları günün uzaqda olmadığının sübutudur. Bu tarixi qələbənin qazanılmasında canlarını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyirəm.

# İllik Fəaliyyət Hesabatı

Ötən bir il ərzində də ünvanıma daxil olan hər bir müraciətə həssalılqla yanaşaraq səlahiyyətlərim daxilində qeyd olunan çətinliklərin həllinə çalışmışam. Ünvanıma həm təmsil olunduğum dairənin seçiciləri, həm də qeyri şeçicilər tərəfindən müraciətlər daxil olmuşdur. Belə ki, ötən bir il müddətində müraciət edənlərin 53 faizi Füzuli rayonundan olan seçicilərimiz, 36 faizi rayonumuzdan kənarda məskunlaşmış həmyerlilərimiz, 11 faizi isə digər vətəndaşlarımızdır.




Müraciətlər adətən rəsmi şəkildə həm Milli Məclis aparatına, həm də Deputat ofisimizə ünvanlanır. Rəsmi olaraq, eləcə də sosial şəbəkələr və telefon vasitəsilə edilən müraciətləri də nəzərə alsaq, ümumilikdə ötən bir il ərzində ünvanıma 637 müraciət daxil olub. Bunlardan 289 müraciət Milli Məclis aparatına, 348 müraciət isə telefon və sosial şəbəkələrdə daxil olmaqla şifahi şəkildə daxil olmuşdur. Qeyd olunan müraciətlərdən 523-i sosial, 58-i iqtisadi problemlərlə, 56 müraciət isə maddi yardım istəyi də daxil olmaqla digər problemlərlə əlaqədar olmuşdur.

Ötən bir il ərzində həm rayon ərazisində həm də rayondan kənarda məskunlaşmış seçicilərimizlə görüşlərimiz mütəmadi olaraq davam etdirilmişdir.




Belə ki, bu il həm rayon ərazisində, həm də rayondan kənarda məskunlaşmış seçicilərimizlə ümumilikdə 25 görüş keçirilmişdir. Bu görüşlərdə 345 seçicinin müraciəti dinlənilmişdir. Görüşlərdə iştirak edən hər bir seçicinin müraciətinə diqqətlə yanaşaraq qeyd etdikləri problemlərinin həll olunmasına köməklik göstərilməsi məqsədi ilə aidiyyəti struktrlara deputat sorğuları göndərmişəm.




Bildiyimiz kimi 2023-ci il sentyabr ayının 19-da həyata keçirilən uğurlu antiterror əməliyyatları zamanı ölkəmizin ərazi bütövlüyü tam bərpa olunmuş və qeyri-qanuni erməni silahlı birləşmələri ərazilərimizdən çıxarılmışdır. Vətən müharibəsində olduğu kimi antiterror əməliyyatları zamanı da Füzuli rayonu aktiv iştirak etmiş və bu yolda 5 nəfər şəhid vermişdir. Füzuli rayonuna etdiyim səfərlər zamanı antiterror əməliyyatlarında şəhid olan hərbi qulluqçularımızın ailə üzvləri ilə görüşmüş, onların problem və qayğıları ilə maraqlanmış, səlahiyyətlərim çərçivəsində dəstək olmağa çalışmışam.



Ölkəmizin ərazi bütövlüyünün tam bərpa olunması birinci Qarabağ müharibəsində itkin düşmüş vətəndaşlarımızın və hərbi qulluqçularımızın taleyinə aydınlıq gətirilməsində mühüm rol oynayır. Belə ki, ərazilərin azad olunmasından sonra müxtəlif ərazilərdə birinci Qarabağ müharibəsində itkin düşmüş 4 Füzuli rayon vətəndaşımızın qalıqları müəyyən olunmuşdur. Həmin şəxslərin dəfn mərasimində iştirak etmiş, ailə üzvləri ilə görüşmüş, problem və qayğılaı ilə maraqlanmışam.



Səyyar görüşlər qrafikinə uyğun olaraq hər ay rayon ərazisində və rayondan kənarda məskunlaşmış seçicilərimizin problemlərinin öyrənilməsi məqsədi ilə görüşlərimiz baş tutur. Bu görüşlərdə ən çox olunan müraciətlər arasında özünüməşğulluq və işlə bağlı müraciətlər olmuşdur. Seçicilərin məşğulluğunun artırılması məqsədi ilə rayon ərazisinə ayrılan sosial işlərin və özünüməşğulluq proqramları üzrə kvotanın artırılması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyinə müraciət etmişəm.



Füzuli rayonu Böyük Bəhmənli kəndi ölkəmizdə ən çox şəhidi olan kəndlərdən biridir. Kəndin Birinci və İkinci Qarabağ müharibəsində ümumilikdə 60-dan çox şəhidi var. Böyük Bəhmənli kəndinə səfərimiz zamanı həm şəhidlər abidəsini ziyarət etdik, həm də kənd ərazisində yerləşən köhnəlmiş şəhidlər parkının yenilənməsi yollarını müzakirə etdik. Şəhidlər parkının yenilənməsi üçün müvafiq qurumlarla təmaslarımız davam edir və bu mövzuda dəstək göstərməyə çalışacağıq.



Füzuli rayonunda görüşlərimiz zamanı şəhid ailələri və qazilərimizi diqqətdə saxlayır, onların problem və qayğıları ilə maraqlanıram. Füzuli Qazilər Cəmiyyətinin üzvləri ilə görüşdə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə əldə edilən tarixi zəfər xüsusi vurğulandı və qəhrəman qazilərimiz öz təəssüratlarını bölüşdülər. Füzuli qazilərinin sayına görə seçilən rayonlarımızdandır. Rayon qaziləri dövlət qayğısını yüksək qiymətləndirərək ölkə başçısına minnətdarlıqlarını ifadə edirlər. Bəzi qazilərimizin mənzil təminatının daha qısa zamanda həll edilməsi üçün uyğun dövlət qurumlarına rəsmi sorğularla müraciət etmişəm.



Ümumilikdə son bir il ərzində ünvanıma daxil olan yazılı və şifahi müraciətlər əsasında müxtəlif dövlət qurumlarına 265 deputat sorğusu göndərmişəm ki, bununla da onlarla seçicinin səhiyyə, sosial, məşğulluq və digər sahələr üzrə problemləri öz həllini tapmışdır.

## İrəli sürdüyüm təkliflər

Füzuli rayonunda 427 fərdi yaşayış evi hazırda qəzalı vəziyyətdədir. Həmin evlər Birinci Qarabağ Müharibəsi zamanı ziyan görüblər və onlar daha sonra qismən təmir olunsalar da əsaslı təmirə ehtiyac var. Bu məsələ ilə bağlı Füzuli rayonunda keçirdiyimiz görüşlərdə bizə mütəmadi müraciətlər daxil olur. Milli Məclisin iclasında Nazirlər Kabinetinin fəaliyyətinə dair hesabatla bağlı çıxışım zamanı həmin evlərin əsaslı təmirinə dəstək olunmasını Baş Nazirdən xahiş etdim. Eyni zamanda, Füzuli rayonunun qəsəbələrində də içməli su problemi də var. Qaydış və Zobcuq qəsəbələrində bu problemlərin qısa zamanda həlli daha aktualdır. Hökumətdən bu məsələyə dəstək olmasını xahiş etdim.

Milli Məclisin iclasında "Dərman vasitələri haqqında" qanuna edilən dəyişikliklərin müzakirəsin zamanı çıxışımında dərman idxalının artması, qiymətlərin yüksək olması və digər məsələlərə toxundum. Son 3 ildə dərman idxalı 2 dəfə artıb. Dərman vasitələrinin 20.0 faizindən çoxunu Türkiyədən idxal edirik. Bununla belə, Azərbaycanda eyni dərman Türkiyə ilə müqayisədə kəskin bahadır. Eyni zamanda, dərman idxalında Almaniya, Rusiya, Hindistan və İtaliya xüsusi paya malikdir. Həm dərman vasitələrinin qiymətinin aşağı salınması, həm də idxaldan asıllığın azaldılması üçün yerli istehsalın stimullaşdırılmasının da vacib olduğunu bildirdim. Digər vacib məsələ qiymət siyasətinin təkmilləşdirilməsidir. Taarif Şurası tərəfində həyata keçirilən qiymət siyasətinin təkmilləşdirilməsi həm də sahibkarlıq fəaliyyətinin bu sahədə genişləndirilməsi baxımdan vacibdir. Bu sahədə bürokratik əngəllərin aradan qaldırılmasına ehtiyac olduğunu qeyd etdim.



Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında "Əmək Məcəlləsi" və bir sıra müvafiq qanunlara təklif edilən dəyişikliklər müzakirə edildi. Yeni dəyişikliklərə əsasən, ümum təhsil müəssisələrində 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür. İclasda çıxışım zamanı sertifikalaşdırma prosesinin təkmilləşdirilməsi ilə bağlı bir sıra təkliflərimi təqdim etdim. Müəllimlərin əməyinin keyfiyyət kriteriyası üzrə qiymətləndirilməsi müsbət hal olsa da belə meyarların sayının artırılmasına ehtiyac olduğunu bildirdim. Sertifikatlaşdırmada differensial yanaşmanın daha məqsədəuyğun olacağını bildirdim. Mövcud qanunvericiliyə əsasən, müəllim 3 dəfə məcburi sertifikatlaşdırmadan keçməlidir. Amma sertifikatlaşdırmanın sayı və müddəti müəllimin topladığı nəticəyə diferensial uyğunlaşdırılmalıdır. Elm və Təhsil Nazirliyi ilə təhsil sektorunun inkişafı ilə bağlı mütəmadi faydalı müzakirələrimizin aparıldığını və təkiflərimizə hər zaman diqqətlə yanaşdıqlarını nəzərə alaraq əminəm ki, sertifikatlaşdırmanin təkimilləşdirilməsi ilə əlaqədar da səmərəli fikir mübadilələrimiz olacaqdır.

Milli Məclisin plenar iclasında avtomobillərin utilizasiyası ilə bağlı qanun layihəsi müzakirə olundu. Çıxışımda qeyd etdim ki, bir sıra region ölkələrinin və eləcə də Avropa İttifaqına üzv dövlətlərin təcrübəsini nəzərə alsaq bu sahədə ayrıca qanunun hazırlanması və qəbul olunması daha məqsədəuyğun olardı. Utilizasiya ilə bağlı 2 fərqli praktika olduğunu bildirdim. Bunlardan biri ABŞ, digəri Avropa İttifaqının praktikasıdır. Hər ikisində utilizasiya prosesi 12 ildir. Beynəlxalq praktikada utilizasiya müddəti 12 il götürülsə də, bizim layihədə bu, 4 il müəyyən edilir. Bunun əsaslandırılmasına ehtiyac olduğunu bildirdim. İşlənmə müddəti dörd ildən artıq olan avtomobillərin utilizasiyaya cəlb edilməsi praktiki olaraq idxal avtomobillərinin xərcini artıracaq. Buna görə də, ödəmə üsullarının konseptual olaraq təkmilləşdirilməsi və vauçerlə nağd ödəniş arasında əlaqənin formalaşdırılmasının vacib olduğunu qeyd etdim.



Milli Məclisin plenar iclasında "Kosmik Fəaliyyət haqqında" qanun layihəsinin müzakirəsi zamanı sənədin daha da təkmilləşdirilməsi ilə bağlı maddələr üzrə təkliflərimi təqdim etdim. Qanun kifayət qədər strateji sektorda fəaliyyətləri tənizmləyəcək. 2009-cu ildə Azərbaycan Prezidenti tərəfindən "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunduqdan sonra, qısa müddət ərzində ölkəmiz kosmik xidmət göstərən dövlətə çevrildi. Hazırda Azərbaycan peykləri 42 ölkədən 182 müştəriyə xidmət göstərir. Bu fəaliyyət genişləndikcə ayrıca qanunun qəbuluna ehtiyac var idi.



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bank qanunvericiliyinə təklif edilən dəyişikliklər müzakirə olundu. Mərkəzi Bankın sədri Taleh Kazımovun iştirakı ilə keçirilən iclasda bank sektorunun mövcud vəziyyətə, o cümlədən kredit və valyuta bazarlarına xüsusi toxunuldu. Çıxışım

zamanı Mərkəzi Bank tərəfindən inflyasiya proqnozunun hansı metodologiyaya əsaslanmasına aydınlıq gətirilməsini qeyd etdim. Çıxışım zamanı pensiyaçıların və eləcə də sosial qrupların plastik kartlarından istifadənin asanlaşdırılması ilə bağlı təklifimi də təqdim etdim. Belə ki, bəzi MDB ölkələrində pensiya və sosial yardım kartlarından hansı bankın bankomatı olmasından asılı olmayaraq vəsaitin nağdlaşdırılması zamanı faiz tutulmur. Azərbaycanda, xüsusən regionda yaşayan pensiyaçılarımız üçün vəsaitləri nağdlaşdırmaqda çətinliklərin olduğunu bildirdim. Bu baxımdan, Azərbaycanda da bankomatın hansı banka məxsus olmasından asılı olmayaraq pensiya və sosial kartlardan vəsait nağdlaşdırması zamanı heç bir faiz tutulmamasını da təklif etdim.

Milli Məclisin plenar iclasında 2023-cü ilin dövlət büdcəsinə dəyişikliklər layihəsi müzakirə olundu. Çıxışım zamanı büdcə dürüstləşməsi zamanı proqnozlardakı kəskin kənarlaşmanın əsaslandırılmasını, risklərin zaman və aktivlik üzrə qruplaşdırılmasını, fiskal genişlənmənin iqtisadiyyata və xüsusən idxala təsirlərinin qiymətləndirilməsini, büdcə qaydalarının yalnız icra deyil, eyni zamanda proqnozda da nəzərə alınması kimi məsələləri qeyd etdim. Xərclər istiqaməti üzrə prioritet sahələrin nəzərə alınmasının təqdirəlayiq olduğunu bildirdim.




Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2023-cü il payız sessiyasındakı ilk iclasında çıxışım zamanı iqtisadi qanunvericilikdə məcəlləşmə yanaşmanın tətbiqini təklif etdim. Sektoral məcəllələrin qəbul olunması qanunvericiliyin sistemləşdirilməsinə, o cümlədən, vətəndaşların və sahibkarların hüquqi bazadan daha rahat istifadəsinə imkan yarada bilər. Bu baxımdan, Azərbaycan yeni Vergi Məcəlləsinin hazırlanıb qəbul olunması məqsədəuyğun olacağını bildirdim. Digər təklifim Bank Məcəlləsinin qəbulu ilə bağlı idi. Bank sektorunun inkişafı və vətəndaşların bank xidmətlərin daha kütləvi istifadəsini nəzərə alaraq belə bir məcəllənin hazırlanıb qəbulunun məqsədəuyğun olacağını bildirdim. Bu sektorda islahatların daha da sistemləşdirilməsinə və əhalinin bank qanunvericiliyindən daha aydın şəkildə istifadə imkan yarada bilər. Qeyd edim ki, sektoral məcəllələrin qəbulu Avropa İttifaqı daxil olmaqla əksər

inkişaf etmiş birlik və dövlətlərdə tətbiq olunur. Bu hüquqi bazanın sistemləşdirilməsinə və asan qavranılmasına imkan yaradır.



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sonuncu iclasında "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi müzakirə olundu. Müzakirələrdə çıxışım zamanı vergi siyasəti ilə bağlı bir sıra məqamlara toxundum. Layihədə müzakirə edilən məsələlərdən biri Azərbaycanda vətəndaşların 200 manata qədər aylıq faiz depozit gəlirlərinin vergidən azad olunması ilə bağlı idi. Qeyd etdim ki, əmanət faizləri ilə bağlı təklif olunan güzəştin məbləği azdır, onun artırılması məqsədəuyğun olardı. Təklif etdim ki, 200 manata qədər deyil, minimum əməkhaqqı məbləğində aylıq faiz gəlirləri vergidən azad edilsin. Bu, bankda depozit saxlanılmasını təşviq edə bilər.

Banklar ilə bağlı ikinci qeyd etdiyim məqam sahibkarların bank hesablarında vergi sərəncamların qoyulması ilə bağlı idi. Belə ki, sahibkarın vergi borcu olan zaman onun bütün hesablarına sərəncam qoyulur və nəticədə bu sahibkarın fəaliyyətinə neqativ təsir göstərir. Buna görə də, təklif etdim ki, belə hallarda digər hesablara sərəncamlar göndərilməsin və sahibkar o vəsaitlərindən istifadə edə bilsin.

Digər təklif etdiyim məqam minimum əmək haqqının gəlir vergisindən azad olunması ilə bağlıdır. Hazırda fiziki şəxslərin əmək haqqılarının 200 manat olan hissəsi vergidən azaddır və bu baxımdan daha yaxşı olar ki, minimum əmək haqqı məbləğində hissə vergidən azad olunsun. Bu gün dünyanın əksər ölkələrində minimum əmək haqqı vergiyə cəlb olunmur. Minimum əmək haqqı alan vətəndaşlarımızın az təminatlı insanlarımız olduğunu nəzərə alaraq onların gəlirlərinin vergiyə cəlb olunmamasını təklif etdim.

Əmək haqqı ilə bağlı digər məqam fiziki şəxslərin gəlir verigisində diferensial 2500 manatın artırılması ilə bağlıdır. Belə ki, mövcud qanunvericiliyə əsasən, fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) münasibətdə gəlir vergisi vergi tutulan aylıq gəlirin məbləği 2500 manatadək olduqda 14 faiz, 2500 manatdan çox olduqda 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faiz vergiyə cəlb olunur. 2500 manatlıq hədd 2013-cü ildən etibarən tətbiq edilir. Ötən 10 illik inflyasiya səviyyəsini nəzərə aldıqda real olaraq bu məbləğ iki dəfəyə yaxın artırılmalıdır. O baxımdan, təklif etdim ki, 2500 manat ən azı 4000 manatadək artırılsın. Bununla da, 2500 manatdan 4000 manatadək olan gəlir 25 deyil, 14 faizlə vergiyə cəlb olunsun.

Müzakirələr zamanı güzəştlərin maliyyə yükünün hesablanması metodologiyasının təkmilləşdirilməsi, sektoral və eləcə də rəqabətə təsirlərin müəyyənləşdirilməsi ilə bağlı da təkliflərimiz təqdim olundu.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında qanunvericiliyə təklif etdiyim dəyişikliklərdən biri də işləməyən qazilər və şəhid ailələrinə pulsuz “putyovka”dan (müalicəvi sanatoriyalara göndərişnamə) istifadə etmək imkanının yaradılması ilə bağlı idi. Belə ki, mövcud qanunvericiliyə əsasən, dövlət vəsaiti hesabına “putovka”lar işləyən vətəndaşlara təqdim olunur. Bu baxımdan, qanunvericiliyə dəyişiklik edilməsi və qazilərimiz və şəhid ailələrinin üzvlərinə işləmədikləri halda da belə hüququn verilməsinə ehtiyac var. Qazilərimiz və şəhid ailələrinin üzvləri dövlətin prioritet dəstəklədiyi vətəndaşlarımızdır. Buna görə də, məqsədəuyğun olardı ki, qanunvericiliyə bununla bağlı daha qısa zamanda dəyişiklik olunsun.

Qeyd edim ki, bu təklif Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən də dəstəkləndi.



Azərbaycan regionda ən aşağı ezamiyyə tarifləri tətbiq edən ölkələrdəndir. Belə ki, son ölkəmizdə 5 ildə ezamiyyə xərcləri artırılmayıb. Xarici ezamiyyələr üçün müəyyənləşdirilmiş tariflər də kifayət qədər aşağıdır. O tariflər, praktik olaraq, xərclərin tam ödənilməsinə imkan vermir. Daxildə olduğu kimi xarici səfərlər zamanı müəyyənləşdirilən tariflər uzun müddətdir ki, dəyişdirilmir. Hətta son 2 ildəki yüksək inflyasiyanın qeydə alındığını nəzərə alsaq bu tariflərin real xərclərdən uzaq olduğunu müəyyənləşdirmək çətin olmaz. Bu kontekstdən, son illərdəki qiymət artımına nəzər saldıqda hazırkı ezamiyyə xərcləri kifayət qədər aşağı hesab olunur. Bu baxımdan, ezamiyyə ilə bağlı qaydaların yenilənməsinə və əlavələr

edilməsinə ehtiyac var. Həm ölkədaxili, həm də xarici səfərlər üçün ezamiyyə xərclərinin artırılması məsələsi yenidən gündəmə gətirilməsi və yeni tariflərin müəyyənləşdirilməsi çox vacibdir.



Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sonuncu iclasında "İşsizlikdən sığorta haqqında" qanuna ediləcək dəyişikliklər müzakirə edildi. Təklif olunan dəyişikliklərə əsasən, sığorta ödənişinə görə əlavə ailədəki bütün uşaqlara şamil ediləcək. Hər uşaq üçün əlavə 5 faiz ödənilir. Müzakirələr zamanı təklif etdim ki, ailədə əlilliyi olan uşaqlar üçün daha yüksək əlavələr ödənilsin. Ailədə əlilliy olan uşaq varsa və ailə başçısına işsizlikdən sığorta təyin edilirsə o zaman əlavə 5 faiz deyil, 10 faiz hesablanması daha məqsədəuyğun olardı. Bu həmin ailələrin sosial təminatının daha da gücləndirilməsi baxımdan vacibdir. Qeyd edim ki, təklifin qanunvericilikdə öz əksini tapması üçün müvfiq dövlət qurumları ilə müzakirələr davam etdiriləcək.

## Beynəlxalq fəaliyyət

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Polşa Respublikasının paytaxtı Varşava şəhərinə rəsmi səfəri məhsuldar görüşlər və müzakirələrə ilə yadda qaldı. Yüksək səviyyəli rəsmi görüşlər ilə yanaşı səfərin sonuncu günü Milli Məclisin sədrinin Varşava Universitetində müəllim və tələbə heyəti ilə görüşü də təşkil edildi. Sahiba xanım Qafarova çıxışında ölkəmiz ilə Polşa arasındakı münasibətlər ilə yanaşı Azərbaycanın keçdiyi

tarixi yol, Vətən müharibəsində əldə etdiyimiz zəfər və post-müharibə dövründə aparılan sülh danışıqları barədə məlumat verdi.



Malayziyaya səfər çərçivəsində sözügedən ölkənin Parlamentinin Nümayəndələr Palatasının tərkibində fəaliyyət göstərən Malayziya-Azərbaycan dostluq qrupunun rəhbəri cənab Tuan Haji Aminolhuda bin Hassan və həmin qrupun üzvü cənab Tuan Ts. Zahir Bin Hassan ilə görüş keçirdik. Görüşdə işçi qrupları və eləcə də təmsil etdiklərimiz parlamentlər arası münasibətlərin inkişaf etdirilməsi məsələlərini müzakirə etdik. Malayziya-Azərbaycan dostluq qrupunun rəhbəri mayın 16-da Milli Məclisinin xüsusi iclasında iştirak etmək üçün Azərbaycana səfər etdi. Qarşılıqlı səfərlərin artırılmasının vacibliyi vurğulandı. Malayziya Xarici İşlər Nazirliyinin Çoxtərəfli əlaqələr baş idarəsinin direktoru, nazirliyin baş katibinin

müavini cənab Dato' Cheong Loon Lai ilə görüşdə ölkələrin beynəlxalq qurumlar çərçivəsində əməkdaşlıq məsələləri, o cümlədən NAM platformasında birgə fəaliyyət müzakirə edildi. Görüşdə münasibətlərin daha da dərinləşdirilməsi üçün konkret təkliflər müzakirə olundu.




Malayziyaya səfər çərçivəsində Malayziya Sənayeçilər Federasiyasının prezidenti və vitse-prezidentləri ilə görüşdə iki tərəfli iqtisadi əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olundu. Qərara alındı ki, yaxın zamanlarda federasiya ilə Azərbaycanda müvafiq assosiasiya arasında anlaşma sənədinin imzalanması üçün onlayn müzakirələrə başlanılsın. Malayziyanın aparıcı beyin mərkəzi hesab olunan Strateji və Beynəlxalq Araşdırmalar İnstitutunun sədri və proqram rəhbərləri ilə görüşdə birgə tədqiqatların aparılması və qarşılıqlı səfərlərin təşkili müzakirə olundu və ilkin razılaşmalar əldə edildi. Kuala Lumpurda

həmçinin Malayziyanı təmsil edən bir sıra iş adamları ilə görüşüb ölkəmizə sərmayə qoyuluşu və ticarət əlaqələrinin genişləndirilməsi məsələlərini danışdıq.



Azərbaycan Respublikasının Malayziyadakı Səfirliyinin və "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin birgə təşkilatçılığı ilə Kuala Lumpur şəhərində Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə, həmçinin Azərbaycan-Malayziya arasında diplomatik münasibətlərin yaradılmasının 30-cu ildönümünə həsr edilmiş azərbaycanlı rəssamların əsərlərindən ibarət sərginin açılışı oldu. Sərgiyə Malayziyanın nüfuzlu incəsənət mərkəzlərindən biri olan "KL City Art" qalereyası ev sahibliyi edirdi. "KL City Art" qalereyasının direktoru Maizon Omarun moderatorluğu ilə

keçirilən açılış mərasimində Azərbaycanın Malayziyadakı səfiri İrfan Davudov, Malayziya Parlamentinin üzvü Zahir Bin Hassan və “Dirçəliş” mərkəzinin direktoru İslam Baxşəliyev ilə birlikdə çıxışımızda bu əlamətdar gün ilə bağlı təəssüratlarımızı bölüşdük. Rəsmi hissədən sonra qonaqlar azərbaycanlı rəngkarlıq ustalarının əsərlərinə baxış keçirdilər. Qeyd edək ki, sərgidə tematik olaraq, “Şuşa qalası”, “Xarı bülbül”, Azərbaycan çalğı alətləri kimi milli mövzularla yanaşı, universal dəyərləri, təbiət gözəlliyini, eləcə də sadə insan həyatını özündə əks etdirən 36 ədəd tablo nümayiş olundu.




Niderland Krallığının Haaqa şəhərində təşəkil edilən “Cənubi Qafqaz və Avropa İttifaqı – çağırışların həlli, imkanların istifadəsi” adlı konfransda çıxışım zamanı dayanıqlı sülhün yalnız ölkələrin ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı tanınması halında mümkünlüyü, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin perspektivləri, kommunikasiyaların yenidən bərpa imkanları, Azərbaycanın bölgədə davamlı sülhü və stabiliyi dəstəkləməsi kimi məsələlərə toxundum.  Qafqazda dayanıqlı sülhün regionun

inkişafına pozitiv təsirləri, Azərbaycan beynəxalq hüquq prinsiplərinə uyğun olaraq Qafqazda sülhü və stabilliyi dəstəkləməsi və bu istiqamətdə də müzakirələri davam etdirməsi diqqəti çatdırıldı.




İtaliyanın Neapol şəhərində təşkil edilən "Ulu Öndər Heydər Əliyev Regional Enerji Təhlükəsizliyi Siyasətinin Banisi Kimi" adlı Beynəxalq Elmi Konfransda çıxışım zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki artan roluna diqqət çəkərək bildiridm ki, ənənəvi məhsullar ilə yanaşı ölkəmiz yaxın illərdə köhnə qitəyə bərpa olunan mənbələrdən əldə olunan enerjini də ixrac edəcək. 2017-ci ildən başlayaraq Azərbaycanın Avropaya elektrik enerjisi də nəql edəcəyi gözlənilir. Azərbaycan artıq qitə enerji

təhlükəsizliyinə töhvə vermiş ölkələrdən sayılır. Hazırda regionun təhlükəsizliyinə xüsusi töhvə verən enerji strategiyası birbaşa Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində mümkün olmuşdur. Daha sonra Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi nəticəsində reallaşan Cənub Qaz Dəhlizi Avropa Birliyinin, o cümlədən İtaliyanın enerji təhlükəsizliyinin formalaşmasına xüsusi töhvə verir. Bu gün artıq reallığa çevrilmiş TAP və TANAP kəmərləri Azərbaycan mavi qazının region və eləcə də Avropa ölkələrinə nəqlini həyata keçirir. 2021 və 2022-ci illərdə Avropada müşahidə edilən enerji böhranı kontekstində Azərbaycan mavi qazı və digər enerji resursları birliyin xüsusilə də Cənubi Avropanın enerji təhlükəsizliyinin formalaşmasında xüsusi paya malik oldu. Tədbir Azərbaycan Respublikası Diasporla İş Komitəsi və Neapol-Bakı Assosiyasiyası ilə birgə təşkil edilib. Konfransda ABŞ, İtaliya, Türkiyə və Gürcüstanı təmsil edən ekspertlər Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı öz fikirlərini bölüşdülər.



Milli Məclisin futbol komandası beynəlxalq turnirdə bürünc medal qazandı. Noyabrın 23-27-də Türkiyənin Antalya şəhərində Türkiyə Respublikasının 100-cü ildönümünə həsr olunmuş beynəlxalq parlamentlərarası futbol turniri keçirildi. Turnirdə Türkiyə, Azərbaycan, Rumıniya, Bolqarıstan, Bosniya və Herseqovina, Macarıstan və Gürcüstan parlamentlərinin komandaları iştirak etdilər. Beynəlxalq turnirdə Azərbaycan Milli Məclisini vitse-spiker Adil Əliyev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin

sədri Tahir Mirkişili, deputatlar Mahir Abbaszadə, Azər Badamov, Məzahir Əfəndiyev, Nurlan Həsənov, Cəbi Quliyev, Naqif Həmzəyev, Vüqar Bayramov, Tural Gəncəliyev, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Beynəlxalq münasibətlər şöbəsinin müdiri İlkin Məmmədov, Milli Məclis sədrinin köməkçisi Aqşin Hümmətov, şöbə müdirinin müavini Emin İmanov, Aparat rəhbərinin köməkçisi İlham Həsənov, Parlament Aparatının əməkdaşları Rüfət Ələkpərov və Təbriz Tağıyevdən ibarət futbol komandası təmsil etdi. Komandanın baş məşqçisi keçmiş futbolçu İsgəndər Cavadov idi. B qrupunda mübarizə aparan Milli Məclisin komandası ümumilikdə 4 oyunda 3 qələbə qazanaraq yarışı bürünc medallarla başa vurdu. Komandamızın yeganə məğlubiyyəti yarışı çempion kimi tamamlayan Rumıniya komandasına qarşı oyunda qeydə alındı.



Azərbaycan 2024 və 2025-ci illərdə Asiya Parlament Assambleyasına (APA) sədrlik edəcək. Qərar 20 dövlətin parlament nümayəndələrinin iştirakı ilə APA-nın İcraedici Şurasının Türkiyənin Antalya şəhərində keçirilən iclasında qəbul olundu. Bu Azərbaycanın beynəlxalq əməkdaşlıq sahəsində yeni bir uğurudur.




## KİV-də aktivlik

Təmsil etdiyim Füzuli rayonunun, ümumilikdə ölkəmizin iqtisadi, sosial inkişafına yönəlik təklif və tövsiyələrimin cəmiyyətimizə çatdıırılmasında sosial media mühüm rol oynayır. Seçicilərimlə ünsiyyətimdə isə sosial media əhəmiyyətli yerə sahibdir. Kütləvi informasiya vasitələrində (KİV) fikir və təkliflərimin istinad və paylaşımı baxımından məlumat göstəricilərinə gəldikdə, statistika bu şəkildədir.




Qeyd etmək istərdim ki, əksər təkliflərimizin konseptual əhəmiyyətini nəzərə alaraq eyni təkliflər çoxlu sayda media orqanlarında yayımlanıb.

Hörmətli seçicilərim, nəzərinizə çatdırım ki, fəaliyyətimə yönəlik rüblük və illik hesabatlarımla mütəmadi olaraq sizi məlumatlandıracağam. Müraciətlərinizlə bağlı məlumat əldə etmək üçün əlaqə:

**Deputat köməkçisi: Eltun Ağakişiyev**
**Email:** 84sayli_sd@meclis.gov.az
**Tel: +994502268002**